Bu gün biz güclü ordu yaratmışıq. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

İyul döyüşləri Qarabağ zəfərinin müjdəçisi oldu

Ötən ilin payızında baş vermiş qalibiyyətli Vətən müharibəsindən ay yarım əvvəl Azərbaycanın işğalçı Ermənistana sonuncu xəbərdarlıq dərsi olmuş Tovuz döyüşlərindən 1 il keçir. Qarabağ cəbhəsində 2016-cı ilin aprelində təcavüzkar Ermənistanın hərbi təxribatına cavab olaraq aparılmış uğurlu hücum əməliyyatından sonra 2020-ci ilin iyulunda işğalçı ölkənin Tovuzda sərhədlərimizi keçmək cəhdinin qarşısının dərhal və qətiyyətlə alınması xalqımıza ikinci dəfə qələbə sevinci bəxş etdi, düşmənə isə məğlubiyyət acısı yaşatdı.

Lakin Aprel döyüşlərində silahlı qüvvələrimizin sürətli hücum qabiliyyəti düşmənə dərs olmadığı kimi, Tovuz hadisələrində sərgilədiyi çevik müdafiə qüdrəti də təcavüzkar dövləti yalançı məstlikdən ayıltmadı. Azərbaycanı yeni ərazilər itirəcəyi ilə hədələməkdə davam edən Ermənistanın sentyabrın 27-də törətdiyi növbəti irimiqyaslı hərbi təxribat isə işğalçını öz ərazilərindən qovub çıxarmaqdan başqa yolu qalmayan Azərbaycanın Qarabağ uğrunda Vətən müharibəsinə başlaması ilə nəticələndi.

44 günlük II Qarabağ savaşının gedişində ötən 30 ildə dünyanın 50 ən güclü ordusu sırasına daxil olmuş Azərbaycan Silahlı Qüvvələri uzun sürən müharibə vəziyyətində yorulub əldən düşmüş, xaraba qoyduğu işğal zonasında ilişib qalmış Ermənistan ordusunu darmadağın etdi. Bu tarixi zəfər I Qarabağ müharibəsindəki məğlubiyyətin acısına son qoymaqla yanaşı, həm də xalqımıza çoxminillik tarixinin ən böyük qələbəsini qazandırmış ordumuzla bağlı sonsuz bir öyünc ünvanı oldu.

Şuşanın alındığı 8 noyabr günündə Prezident, Ali Baş Komandan İlham Əliyev böyük təntənə ilə bəyan etdi: "Yenilməz ordu Azərbaycan Ordusudur. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. Budur bizim fəaliyyətimiz. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi. Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!"

Dövlət müstəqilliyimizi bərpa etməyimizin yetirməsi olan Azərbaycan Ordusu Vətən müharibəsində düşmən üzərində qazandığı qələbə ilə tarixi qəhrəmanlıq ənənələrini qoruyub yaşadan və zənginləşdirən bir güc-qüvvət mərkəzi olduğunu da qəti surətdə sübut etdi. Bu ordunun keçdiyi şanlı yol yeni nəsillər üçün vətənpərvərlik və hünər dərsləridir. Qarbağ zəfərini qazanan da elə bu məktəbdə yetişib formalaşan nəsil oldu.

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi və Azərbaycan xalqının yenidən öz istiqlaliyyətinə qovuşması yeni, müstəqil dövlət quruculuğunun bütün istiqamətlərində olduğu kimi, milli nizami ordu quruculuğu tarixində şərəfli bir mərhələnin başlanğıcını qoydu. Bu mərhələ Azərbaycan Ordusunun təşkilatlanması, formalaşması və reallığa çevrilməsi mərhələsidir. Tarixi şəraitin bütün mürəkkəbliklərinə baxmayaraq, Azərbaycan xalqının və AXC hökumətinin qısa müddət ərzində Azərbaycan Ordusunu formalaşdırması və ölkənin müstəqilliyinin keşiyində dayanacaq bir qüvvəyə çevirməsi daim qürurla xatırlanacaq şərəfli nəticəsidir.

1920-ci ilin aprelində baş verən bolşevik işğalından sonra isə Azərbaycanda tamamilə fərqli bir tarixi şərait meydana gəlsə də, bu dövrdə də ordu quruculuğu istiqamətində mövcud olan təcrübənin Azərbaycan Ordusu tarixindəki özünəməxsus yerini qiymətləndirməmək doğru olmazdı. II Dünya müharibəsi illərində cəbhələrdə azərbaycanlıların göstərdiyi hərbi şücaət və istedad da ənənəvi şəkildə nəsillərdən-nəsillərə ötürülən hərbi təcrübə və keyfiyyətlərin nümayişi idi. Azərbaycanlılardan təşkil edilmiş milli diviziyaların hərb tarixində iz buraxmış şərəfli döyüş yolu, azərbaycanlıların müxtəlif cəbhələrdə və Avropa ölkələri ərazisində göstərdikləri qəhrəmanlıq hərb tariximizə yeni bir səhifə yazmaqla ölkəmizdə hərbi ənənələrin yeni bir səviyyəyə qalxmasına da təkan verdi.

Sovet hakimiyyəti illərində Azərbaycanın hərb tarixi üçün mühüm əhəmiyyət kəsb edən məqamlardan biri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə milli zabit kadrlarının yetişdirilməsi sahəsində göstərdiyi tarixi fəaliyyət oldu. Böyük bir uzaqgörənliklə həyata keçirilən bu işlərin nəticəsində Azərbaycanda yeni bir zabit nəslinin yetişdirilməsi mümkün oldu. Məhz həmin zabitlər XX əsrin sonlarında müstəqilliyini yenidən qazanmış respublikanın milli ordusunun ilkin və gərəkli zabit bazasını təşkil etdilər.

Təşkilatlanması üçün çox qiymətli işlərin hələ sovet dövründə görüldüyü Azərbaycan milli ordusunun yeni əsaslar üzərində yaradılması, möhkəmləndirilməsi və real qüvvəyə çevrilməsi də məhz ulu öndər Heydər Əliyevin adı və tarixi fəaliyyəti ilə bağlıdır. Dünya şöhrətli siyasət və dövlət xadiminin 1993-cü ilin yayında hakimiyyətə qayıdığı və onun müstəqil dövlətimizə rəhbərlik etdiyi son 10 illik dövr ölkə tarixinin ən məsuliyyətli, sınaqlı dövrü olduğu kimi, həm də Azərbaycan Ordusu tarixinin keyfiyyətcə yeni bir şərəfli səhifəsidir.

Bu yeni mərhələ öz başlanğıcını ulu öndərin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən götürür.

Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti Azərbaycanda ordu quruculuğunun əsaslarını müəyyənləşdirəcək tarixi bir sənəddir. Strateji planda ordu quruculuğunun istiqamətlərini müəyyənləşdirən elə bir məsələ yoxdur ki, bu müraciətdə öz əksini tapmamış olsun. Bu tarixi müraciətdə ordu və dövlət, ordu və maddi baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam və s. kimi əsaslı məsələlərin vəziyyəti, əhəmiyyəti və əldə edilməsi yolları bu müraciətdə son dərəcə aydın və anlaşıqlı şəkildə gündəmə gətirilmişdir.

Həmin gündən dərin böhrana düşmüş Azərbaycan Ordusuna yeni sağlam bir nəfəs gəldi, bünövrəsi mövcud nöqsanlardan təmizləndi, şəxsi heyətdə canlanma yarandı, yeni hərbi hissələrin formalaşdırılmasına başlandı. Bu hərbi hissələrin rəhbərliyinə Vətəninə sədaqətli zabitlərin təyin olunması nəzarət altına alındı. Bütün bunlar tezliklə nəticələrini göstərməyə başladı.

Azərbaycanın hərbi qüvvələrinin 1994-cü ilin yanvarında Füzuli, aprelində Ağdam–Tərtər istiqamətində apardığı uğurlu döyüşlər Azərbaycan Ordusunun simasının dəyişdiyini nümayiş etdirdi və bu dəyişiklik düşmən qüvvələrini də təşvişə saldı. Prezident, Ali Baş Komandan Heydər Əliyevin yenicə yaratmağa başladığı ordu qarşısında böyük itkilər verən düşmən qüvvələri atəşin dayandırılmasına daha ciddi yanaşdılar və bunun nəticəsi olaraq 1994-cü ilin may ayında cəbhədə atəşkəs elan edildi.

Atəşkəsin əldə edilməsi Azərbaycan Respublikası Ordusunun formalaşmasında yeni bir canlanmanın başlanğıcını qoydu. Bunu Heydər Əliyevin özü də çox böyük məmnunluqla vurğulayaraq deyirdi: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid koman-danlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ordu quruculuğu siyasətinin ardıcıl, davamlı və yaradıcı şəkildə həyata keçirilməsinin nəticəsində hazırda Azərbaycan Ordusu tarixinin ən şərəfli dövrünü yaşayır və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında bu tarix hər gün daha da zənginləşməkdədir. Onun nəticəsi kimi, indi Azərbaycan Ordusu yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları arasında özünə layiqli yer tutmuşdur. Dövlət başçısı İlham Əliyevin qayğısı nəticəsində son illər ərzində Azərbaycan Ordusu inkişafının yeni bir səviyyəsinə yüksəlmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında günü-gündən inkişaf edən və möhkəmlənən Azərbaycan Ordusu nəyə qadir olduğunu hələ 2016-cı ilin aprelində Ermənistanən hərbi qüvvələrinin təxribatının qarşısının alındığı zaman və 2018-ci ilin mayında Naxçıvanın Günnüt kəndi ətrafındakı torpaqları erməni işğalından azad edərkən artıq əyani şəkildə nümayiş etdirdi.

2020-ci il iyul ayının 12–15-də Ermənistan–Azərbaycan sərhədinin Tovuz rayonu ərazisində baş verən hadisələr zamanı isə Azərbayvcan Ordusu bölmələri tamamilə yeni bir keyfiyyət ortaya qoydular. Ordunun komandir və zabit heyətinin yüksək peşəkarlığı, təşəbbüskarlığı və çevikliyi Ali Baş Komandan tərəfindən verilən tapşırıqların tam şəkildə yerinə yetirilməsinə yol açdı. Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilmişdir.

Həmin günlərdə İlham Əliyev Ali Baş Komandan kimi ordunun hazırlıq səviyyəsini belə qiymətləndirmişdi: "Bu gün biz güclü ordu yaratmışıq. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən verilən bütün tapşırıqları şərəflə yerinə yetirir. Mənim dövrümdə bir dəfə də olmayıb ki, tapşırıq verilsin, yerinə yetirilməsin. Yerinə yetirilib".

Tovuz döyüşləri zamanı bölgədəki hərbi qüvvələr dərhal bu təcavüzün qarşısının alınmasına səfərbər olundular, Azərbaycan Ordusunun malik olduğu müasir hərbi texnika çox dəqiqliklə işə salındı. Xüsusilə pilotsuz uçan təyyarələr Ermənistanın istər sərhəd boyu, istərsə də Ermənistanın dərinliklərində olan hərbi obyektlərini darmadağın etdi, təcavüzkara ağır itki verildi. Erməni hərbi qüvvələrinin ələ keçirməyə çalışdığı ərazilər geri qaytarıldı və düşmənə bu bölgədə bir qarış da olsa torpaq verilmədi.

Tovuz hadisələrinin uğurla başa vurulmasına yol açan göstəricilərdən biri də, sözsüz ki, iqtidar-xalq birliyinin real qüvvəyə çevrilərək Ermənistanın hərbi-siyasi rəhbərliyinə qarşı güclü bir zərbəyə çevrilməsi idi. Bu hadisələrin başlaması ilə Azərbaycan xalqı dövlət rəhbərliyi ilə dünyanı heyrətə gətirəcək bir həmrəylik nümayiş etdirdi. Keçirilən möhtəşəm aksiyalarda və mötəbər bəyanatlarda xalq torpaqlarımızın müdafiəsi üçün nəinki Ali Baş Komandanının yanında olmağa, hətta onun bir əmri ilə cəbhəyə yollanmağa hazır olduğunu da ortaya qoydu. Bununla Vətənin müdafiəsi məsələsində Ali Baş Komandan–Xalq vəhdətinin əyaniliyinə Azərbaycanın dostları da, düşmənləri də şahid oldular.

2020-ci ilin İyul döyüşləri dövlət rəhbərinin öz fəaliyyətində, xüsusən Vətənin müdafiəsində xalqa arxalanmağın, ağır gündə xalqla bir yerdə olmağın yeni bir nümunəsini göstərdi. Prezident İlham Əliyev o zaman bu birliyi belə dəyərləndirdi: "Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. Son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi. Bu gün xalq–iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir".

Tovuz döyüşləri zamanı tarixi zəfərin əldə edilməsinin bir göstəricisi də, şübhəsiz, qüdrətli Azərbaycan Ordusunun mövcudluğudur. Qəfil, namərdcəsinə haqlanmasına baxmayaraq, mümkündür. Belə güclü dövlətin və mərkəzləşdirilmiş rəhbərliyin təmsilçisi isə Ali Baş Komandandır.

Prezident İlham Əliyev ordunun komandir heyətinin, ordu rəhbərliyinin Ermənistanın hərbi təcavüzünün qarşısının alınması üçün göstərdikləri xidməti fədakarlığa öz münasibətini o günlərdə belə bildirmişdir: "Bizim şanlı ordumuz, bizim əsgərlərimiz, zabitlərimiz, hərbi komandirlərimiz bu günlər ərzində gecə-gündüz yatmadan iş başındadırlar. Mən Müdafiə nazirinə, Baş Qərargah rəisinə nə vaxt zəng edirəmsə, iş başındadırlar – gecə, səhər saat 7-də, axşam saat 10-da, gecə saat 2-də. Biz böyük qələbə qazanmışıq".

Tovuz hadisələri zamanı şəhid olan hərbçiləri isə dövlət başçısı İlham Əliyev nisgilli duyğularla yad etmiş, onların qəhrəmanlığını gənc nəsil üçün örnək saymışdır. Bu da əslində, Ali Baş Komandan tərəfindən Vətən müdafiəçilərinə göstərilən qayğının bir nümunəsi idi. Bununla İlham Əliyev həm də onu anladırdı ki, Vətənin müdafiəsi yolunda canını fəda edənlər heç zaman unudulmayacaqlar. Əksinə, Azərbaycan xalqı haqlı olaraq onlarla fəxr edəcəkdir: "General Polad Həşimov, polkovnik İlqar Mirzəyev həlak olmuşlar. Onların həyatı, torpaq, Vətən uğrunda göstərdikləri şücaət, qəhrəmanlıq hər bir gənc üçün nümunə olmalıdır. Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib".

Ali Baş Komandanın vəziyyətə nəzarəti dərhal öz əlinə alması, baş verən təcavüzün aradan qaldırılması üçün soyuqqanlılıq , iradə və qətiyyət nümayiş etdirməsi, vaxtında verdiyi zəruri göstəriş və əmrlərin icrasına nail olması çox tezliklə vəziyyətin sabitləşdirilməsinə, şəhid olmuş hərbçilərin qisasının alınmasına, başlıcası isə dövlət sərhədinin Azərbaycan hissəsini bütünlüklə nəzarət altına götürülməsinə yol açdı: "Dərhal mən bütün müvafiq göstərişlər verdim. Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. Görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu".

İlham Əliyev Ali Baş Komandan kimi yalnız ordu qüvvələrinin qisas döyüşlərinin keçirilməsini nəzarət altına götürmədi. O, eyni zamanda Prezident Administrasiyasının müvafiq şöbələrinə, Nazirlər Kabinetinə, aidiyyatı qurumlara lazımi göstərişlər verdi, dövlətin gücünü baş verən erməni təcavüzünün qarşısını almağa səfərbər etdi. Bu hadisələrin nəticəsi də artıq göstərir ki, Ali Baş Komandan döyüş xəttində təşəbbüsün ələ alınması və Ermənistanın hərbi-siyasi rəhbərliyinin yerində oturdulması üçün zəruliliyi və səmərəliliyi şübhə doğurmayan qərarlara əl atdı.

Ordumuzun İyul zəfərinə aparan yol Ali Baş Komandanın düzgün rəhbərliyindən və onun qəbul etdiyi zəruri-operativ qərarlardan başladı. Bu zəfəri həm də böyük qələbənin ərəfəsi saymaq olar. Nəticə etibarilə Iyul döyüşləri Qarabağ zəfərinin müsjdəçisi oldu. Həmin günün yaxında olduğunu isə Ali Baş Komandanın son bəyanatlarından duymaq mümkün idi.

Bu bəyanatlar həm də əminliklə onu deməyə imkan verirdi ki, böyük zəfərin addım-addım yaxınlaşdırılması, Azərbaycan bayrağının işğal olunmuş ərazilərə sancılması üçün Ali Baş Komandanın son nəticəyə hesablanmış və uğuru şübhə doğurmayan strateji xətti vardır: "O ki qaldı, bizim addımlarımıza, lazım olan vaxtda lazım olan addımları atırıq və atacağıq. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz. Biz bilirik nə etmək lazımdır, nə vaxt etmək lazımdır və necə etmək lazımdır".

Tovuz döyüşlərindən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi "Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq" bəyanatı isə göstəririrdi ki, qəhrəman ordumuzun torpaqlarımızı işğaldan azad edəcəyi gün çox da uzaqda deyil. Bunu cəbhədə və beynəlxalq aləmdə əldə edilən uğurlar, bir də Ali Baş Komandanın inamlı qətiyyəti deməyə əsas verirdi. Ötən hər gün bizi Azərbaycanın haqq işinin təntənəsinə, Ali Baş Komandanın xalqımıza qazandıracağı böyük və son zəfərə yaxınlaşdırırdı.

Tarixə Vətən müharibəsi adı ilə düşən II Qarabağ savaşı Azərbaycan Ordusunun zəfər tarixinə çevrildi. Dünyanın müxtəlif ölkələrinin hərbi mütəxəssislərinin qeyd etdiyi kimi, Azərbaycan Ordusu XXI əsrin yeni müharibəsinin aparılmasının nümunəsini nümayiş etdirdi. Ən yeni nəsil hərbi texnika ilə piyada qüvvələrin fəaliyyət uzlaşmasının dəqiqliklə, yeni təfəkkür və yanaşma ilə təmin edilməsi müasir döyüşün taktikasına da yeniliklər gətirdi. Xüsusilə, pilotsuz zərbə uçuş aparatlarının dünya təcrübəsində ilk dəfə çox geniş miqyasda və davamlı şəkildə tətbiqi döyüş meydanında səmanın tamamilə Azərbaycanın nəzarəti altına keçməsinə yol açdı. Düşmən tərəfi heç bir yolla Azərbaycan ordusunun hava hücumlarının qarşısını ala bilmədi. Qısa zaman ərzində düşmənin həm hava hücumundan müdafiə sistemi, həm də hərbi texnikası sıradan çıxarıldı, onun atəş gücünə sarsıdıcı zərbə vuruldu.

Qarabağ uğrunda Azərbaycan xalqının 2020-ci ilin payızında apardığı Vətən müharibəsi, şübhəsiz, soyuq müharibə dövründən sonra dünya miqyasında baş vermiş ümumxalq-ümumilli müharibənin, müharibə aparan bir ölkədə xalq–dövlətordu birliyinin ən dəyərli bir nümunəsidir. Qeyd edilən dövr ərzində local və ya regional müharibə tapmaq çətindir ki, onun hazırlanmasında, planlaşdırılmasında, aparılmasında, mövcud olan daxili və xarici potensialın bu müharibənin aparılmasına istiqamətləndirilməsində Azərbaycanda olduğu kimi Ali Baş Komandanın həlledici iştirakı bu dərəcədə qabarıq hiss olunsun.

Azərbaycan öz ordusu ilə Vətən müharibəsinin gedişində döyüşlərin aparılması taktikası ilə bağlı mövcud olan təsəvvürlərdə bir çevriliş etdi ki, indi bu yeniliklər dünyanın güclü ordularının rəhbərləri və hərb mütəxəssisləri tərəfindən maraqla öyrənilməkdədir. Xalqın qürur mənbəyinə çevrilmiş olan Azərbaycan Ordusunun şəxsi heyəti Vətən müharibəsi cəbhəsinin bütün sahələrində düşmənin belini qırmağa istiqamətlənmiş sonsuz şücaət və fədakarlıq nümayiş etdirdi. Bununla belə, şübhəsiz, Şuşa şəhərinin azad edilməsi Azərbaycanın Ordusunun apardığı döyüşlərin zirvəsini təşkil edir.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətini belə tamamlayırdı: "17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsinin gedişində həlledici hadisəyə çevrildi. Məhz bu şəhərin azad edilməsi ilə müharibənin gedişində çox böyük strateji üstünlük əldə edildi, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan xalqının, dövlətinin və ordusunun qarşısında diz çökməyə məcbur olaraq noyabr ayının 10-da kapitulyasiya sənədini imzalamalı oldu. Düşmənin başına dəmir yumruq kimi enən Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı və fədakarlığı nəticəsində əldə edilmiş tarixi zəfər müstəqil dövlətimizin ərazi bütövlüyünün tamamlanması, 30 ilə yaxın davam edən erməni işğalına son qoyulması ilə nəticələndi.

Artıq 8 aydır ki, Azərbaycan Ordusu öz xidmətini işğaldan azad edilmiş ərazilərdə, Ermənistanla dövlət sərhədində davam etdirir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bu ordu gələcəkdə də öz tarixinin yeni-yeni şərəfli səhifələrini yazacaqdır.

Mehman SÜLEYMANOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, ehtiyatda olan polkovnik